# BƏLƏDİYYƏ HƏYATI

№1 (325) www.belediyye.info / e-mail: belediyye2015@gmail.com

İCTİMAİ - SİYASİ QƏZET

22 Yanvar 2016-cı il

Qəzet 2003-cü ildən nəşr edilir


# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV STRUKTUR İSLAHATLARINA BAŞLADI

**Bu gün prezident İlham Əliyev hökumətdə və onun altqurumlarında struktur islahatlarını başladan fərmanlar imzalayıb.**

Bu fərmanlara əsasən İqtisadiyyat və Sənaye Nazirliyinin adı dəyişdirilib və oradan "sənaye" sözü çıxarılıb. Bu ad dəyişikliyinin nazirliyin mərkəzi aparatında və strukturlarında ştat ixtisarlarına səbəb olub-olmayacağı hələ məlum deyil.

Lakin prezidentin digər fərmanları ilə Nazirlər Kabineti yanında iki struktur faktiki ləğv edilib. Onlardan biri Satınalmalar üzrə Dövlət Agentliyidir. Bu strukturun səlahiyyətləri və funksiyaları İqtisadiyyat Nazirliyi yanında Antiinhisar siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə verilib.

Satınalmalar üzrə Dövlət Agentliyi büdcədən maliyyələşən strukturlar, nazirliklər və dövlət komitələri, icra hakimiyyətləri orqanları üçün mal və xidmətlərin satın alınmasına dair açıq tenderlərin keçirilməsinə məsul idi. Lakin bu strukturun öz funksiyalarının öhdəsindən gəlmədiyi tamamilə aydındır. Çünki indiyədək Agentliyin keçirdiyi tenderlər tamamilə formal xarakter daşıyıb. Hər nazirlik, dövlət səhmdar cəmiyyətləri, icra hakimiyyətləri orqanları hansısa mal və xidmətləri açıq müsabiqə yolu ilə satın almayıblar.



Bu müsabiqələri həmin strukturların rəhbərlərinin yaxın adamlarının, qohum əqrəbalarının adlarına açılmış cürbəcür MMC-lər "udublar". Mətbuat bu korrupsiya faktları barədə dəfələrlə faktlar əsasında yazıb. Prezident İlham Əliyev Nazirlər Kabinetinin son iclasında satınalmalarla bağlı hökm sürən korrupsiyanı xüsusi qeyd etdi və bu sahədə şəffaflığın təmin edilməsinin zəruriliyini ifadə etdi. İndi Satınalmalar üzrə Dövlət Agentliyinin ləğvi və onun funksiyalarının İqtisadiyyat Nazirliyinə verilməsi bu istiqamətdə atılmış ilk addımdır.

Prezidentin digər fərmanı ilə Dövlət Bayrağı Kompleksi İdarəsi Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsinə birləşdirilib. Bu birləşmə nəticəsində ştat vahidlərinin ixtisarı və xərclərin həmin idarələrin saxlanılmasına ayrılan xərclərin azalacağı gözlənilir.

Xatırladaq ki, prezident funksiyaları bir-birini təkrarlayan strukturların ləğv ediləcəyini də bildirmişdi. Bu baxımdan gözlənilir ki, struktur islahatları və idarəetmə sisteminin təkmilləşdirilməsi prosesi yaxın həftələrdə davam etdiriləcək. Bəzi mənbələr islahatlar çərçivəsində hətta nazirliklərin sayının da azaldılacağını təxmin edirlər.

Qənaət tədbirlərinin dövlət aparatının saxlanılması üçün xərcləri də əhatə edəcəyi qaçılmazdır. Məlumatlara görə hökumət büdcədən maliyyələşən bütün təşkilatlara ştat vahidlərinin azaldılması imkanlarını nəzərdən keçirmək barədə təlimatlar göndərib və gözlənilir ki, neftin kəskin ucuzlaşması ilə bağlı büdcəyə yenidən baxılması zamanı dövlət aparatının saxlanılması üçün xərclər də ixtisar ediləcək.

***Virtualaz.org***

# Arif RƏHİMZADƏ: "Əhalinin ictimai fəallığının artdığı gün Mənzil İstismarı Sahələrinə ehtiyac qalmayacaq"

**Müsahibim Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri Arif Rəhimzadədir.**

Öncə qeyd edim ki, müsahibimlə bir saata yaxın davam edən söhbətdə bələdiyyələrin qarşılaşdığı problemləri ətraflı müzakirə etdik. Dəqiqliyi, səmimiyyəti və gülərüzlüyü ilə seçilən müsahibim bələdiyyələrin gələcəyinin perspektivli olacağına tam əmindir, ancaq bir şərtlə ki...

Müsahibədə məhz həmin şərt haqqında çox danışılacaq...

Beləliklə, ürəyimdən çox suallar keçsə də söhbəti millət vəkilinin bələdiyyələrin 2015-ci il üzrə fəaliyyətinə verəcəyi qiymətlə başlayıram:

- Hazırda bələdiyyələrin cari ildəki fəaliyyətinə yekun vurmaq hələ tezdir. Bu gün ictimaiyyətə bələdiyyələrlə bağlı müxtəlif fikirlər səslənsə də, hesab edirəm ki, bələdiyyələr yarandığı gündən inkişafdadır və ötən dövrdə idarəetmə sistemində özünəməxsus yer tuta biliblər.

Yadınızdadırsa, cənab prezidentin bələdiyyələrin fəaliyyətiylə bağlı may ayında ciddi bir tənqidi olmuşdu. Bu əsaslı və məntiqə söykənən bir tənqidi idi. Ancaq cəmiyyətdə çoxları elə başa düşür ki, cənab prezidentin tənqidi tək bələdiyyələrə aiddir. Sözsüz ki, bu iradda bələdiyyələrin böyük payı var.

Tənqiddən bir pay da bələdiyyələrin fəaliyyətinə ciddi təsir edən icra orqanlarının üzərinə düşür. Odur ki, bu tənqiddən bələdiyyələrlə yanaşı icra orqanları da nəticə çıxarmalı və qanunla nəzərdə tutulan məsələlərin icrasına əməl etməlidirlər.

- Bu gün etiraf edilməlidir ki, yerlərdə icra hakimiyyəti orqanları bələdiyyələrin fəaliyyətinə öz təmsilçiləri, yəni yerli icra nümayəndəlikləri vasitəsiylə təsir edirlər. Bəlkə bu paralelliyi aradan qaldırmağın vaxtıdır?



Bu paralellik müvəqqətidir. Bir qədər keçmişə qayıtsaq, görərik ki, ölkəmizdə yerli özünüidarəetmə sistemi hələ Çar Rusiyasının vaxtında olubdur. Ancaq indiki formada nə o dövrdə, nə də sovetlər dönəmində olmayıbdır.

Etiraf edək ki, müəyyən mənada təcrübəsizlik var. Amma burada seçicilərin də üzərinə müəyyən məsuliyyət yükünün düşdüyünü etiraf etməliyik. Yəni ictimai fəal seçicinin, fəal da bələdiyyəsi olur. Əfsuslar olsun ki, ictimai fəallıq bizim vətəndaşlarda zəifdir, bəzi yerlərdə yerdə isə yox səviyyəsindədir.

Sovet dövrü cəmiyyətdə sanki bir passivlik yaradıb. Bəzi insanlar elə təsəvvür edir ki, xırda bir problemi də dövlət həll etməlidir. Təsəvvür edin ki, yeni tikilən çoxmənzilli binalarda yaşayan sakinlər düşünürlər ki, binayla bağlı bütün məsələlərin həlli dövlətin üzərinə düşür və onun orqanlarının borcudur ki, onu tez həll etsin. Lakin bu belə deyil axı.

Binanın tikintisi başa çatdıqda həmin binada mövcud olan yaşayış və qeyri-yaşayış sahələri sakinlərin mülkiyyəti olur. Lakin sakinlər öz üzərlərinə düşən işdən boyun qaçırırlar. Belə olan halda binanı tikən sahibkar mülkiyyətçilərin hüquqlarını mənimsəyərək təkbaşına və ona sərf edən qaydada binanın istismarı ilə əlaqədar bütün məsələləri öz üzərinə götürür.

Bu və buna oxşar məsələləri əhali öz üzərinə götürməli və həllinə nail olmalıdır. İctimai təşkilat yarada və ya hansısa özəl strukturla müqavilə bağlayaraq problemlərini həll etməlidir. Dövlətin üzərinə əlavə yük qoymamalıdır.

Əhalinin özünün ictimai fəallığı artdığı gün nə mənzil istismarı sahələrinə, nə də paralel sturkturlara ehtiyac qalacaq və icra orqanlarının üzərinə düşən əsas vəzifə qanunların icrasına nəzarət etmək olacaqdır.

- **Belə olan halda iki sturktur arasında səlahiyyət bölgüsünü özündə ehtiva edən qanunun qəbuluna ehtiyac varmı?**

Belə bir qanuna ehtiyac görmürəm. Çünki bələdiyyələrin səlahiyyətləri tam bəllidir. Qanunlarda və normativ xarakterli sənədlərdə bu məsələlər mükəmməl qaydada öz əksini tapıb. Məqsəd qanunların verdiyi imkandan yararlanaraq yerli özünüidarə orqanlarının qarşılaşdığı problemlərin həllinə nail olmaqdır.

- **Bu gün bələdiyyələrin maliyyə durumunu qənaətbəxş hesab etmək olmaz. 2014-cü ildə onların illik büdcə gəlirləri 50 milyon manatı keçməyib. Bəlkə bələdiyələrə əlavə səlahiyyət və ya yeni maliyyə imkanları verilsin. Bu barədə nə deyə bilərsiniz?**

Razıyam ki, bələdiyyələrin maliyyə imkanları zəifdir. Şəhər bələdiyyələrini çıxsaq, kənd bələdiyyələrinin qazancı qənaətbəxş səviyyədə deyildir. Ancaq etiraf etməliyik ki, bələdiyyələrin istifadə etmədikləri böyük maliyyə ehtiyatları mövcuddur və onlardan səmərəli istifadəyə böyük ehtiyac var.

Sadə bir misal çəkim. 2014-cü ildə fiziki şəxslərdən toplanan əmlak vergisinin həcmi 4.536 min manat olub. Bu gün Azərbaycanda 1.9 milyon ev təsərrüfatı var. Bu rəqəmlərdən aydın olur ki, bələdiyyələr bir evdən (mənzildən) cəmi 2.4 manat vergi toplayıb. Halbuki, bu rəqəmi azı 4-5 dəfə artırmaq olar. Əgər əvvəllər bu verginin yığılmasında məlum çətinliklər vardısa, bu gün onun yığımına "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 20 iyun 2014-cü ildə qəbul edilmiş Qanunu əlverişli şərait yaradıbdır.

Əvvəllər bələdiyyələr öz vəsaiti ilə qiymətləndirmə aparmalı idilər. İndi cənab prezidentin təşəbüsü ilə qəbul olunan bu Qanunla məsələ sadələşdirlib və şəffaflıq təmin edilib. İnanıram ki, bu sahədə mövcud olan müəyyən çətinliklər tezliklə öz həllini tapacaq.

Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinin yığımı da lazimi səviyyədə deyil. 2014-cü ildə ölkə üzrə cəmi 615 min manat toplanılıb.

Bələdiyyə mülkiyyətində olan müəssisələrin mənfəət vergisi cəmi 400 manat təşkil edib.

Bələdiyyələrin ərazilərində mehmanxana və sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən toplanan ödəniş ötən il 508 min manat olub. Necə ola bilər ki, ölkədə bu qədər mehmanxana və sanatoriya-kurort müəssisələri fəaliyyət göstərdiyi halda, bu qədər az ödəniş yığılsın.

Belə başa düşmək olar ki, obyekt sahibləri yerli ödənişləri ödəməkdən yayınırlar. Prosesi tənzimləmək məqsədiylə ciddi addımların atılmasına ehtiyac var. Ya hər hansı sanksiya formasında və ya vergi hesabatlarını verərkən onlardan şərt kimi bu ödənişin bələdiyyələrə verilməsi də tələb edilməlidir.

Düşünürəm ki, bələdiyyələrə verilən maliyyə istiqamətlərindən onlar yetərincə istifadə etməlidirlər.

**-Bəs komitə sədri olaraq bələdiyyələrin maliyyə durumuna kömək etmək məqsədilə hansı təklif verərdiniz?**

Deyim ki, biz növbəti beş ildə bu sahəyə dair qanunvericliyin daha da təkmilləşdirilməsi ilə bağlı fəaliyyətimizlə bələdiyyələrə tutarlı kömək etməliyik.

Bələdiyyələrin mülkiyyətində olan torpaqların öz qərarı ilə mövsümü icarəyə verə bilməsi ilə bağlı bəzi maneələrə baxmayaraq, bu dəyişikliyə nail olmalıyıq.

Məsələn, mənim deputat seçildiyim Neftşala rayonunun ərazisində Şamaxıdan olan təsərrüfatçı, əgər dörd ay ərzində bostan əkmək istəyirsə, gərək bir il sənədləşdirmə işlərini həyata keçirsin. Nəticədə nə bostan əkilir, nə də bələdiyyə büdcəsinə vəsait daxil olur. Biz bu məsləyə yenə qayıdacağıq və ümid edirəm ki, bu dəyişkiliyə nail olunacaqdır.

İkinci məqam, kənd yerlərində nəğdsiz ödənişlə bağlı ciddi problem var. Bir çox halda sakinlər yerli vergiləri ödəməkdən boyun qaçırırlar. Bunun həlli üçün kənd sakini kredit götürmək istədikdə, ona dövlət tərəfindən hər hansı maliyyə yardımı verildiyi halda və ya digər hallarda bir şərt kimi bələdiyyədən borcunun olmaması haqqında arayışın alınmasını tələb kimi qoymaq daha düzgün addım olardı.

- **Bələdiyyələrin ötən seçkilər ərəfəsində birləşdirmə prosesi həyata keçirildi. Birləşdirmə sayəsində bələdiyyələrin sayı 2757-dən bu gün 1607-dək endirilib. Sizin fikrinizcə bu proses davam etdirilməlidirmi?**

Bu gün bələdiyyələrin əksəriyyətində əhalinin sayı 1000-3000 nəfər arası dəyişir. Bu gün bu optimal rəqəmdir. Əhalisinin sayı az olan kəndlərin isə digərlərindən uzaqlığı da nəzərə alınmalıdır. Həmdə bu təşəbbüs əhali tərəfindən qaldırlımalı və qanunauyğun həyata keçirilməlidir. Hər halda son söz yenə də əahlinindir.

- **Ölkəmizdə xeyli müddətdir böyükşəhər bələdiyyələrinin yaradılması haqqında fikirlər dolaşır. Bu gün Bakıda, Gəncədə və Sumqayıt kimi iri şəhərlərdə böyükşəhər bələdiyyəsinin yaradılmasının vaxtı çatmayıbmı?**

Deyim ki, cəmiyyət özü o prosesə hazır olmalıdır. Seçicilər, bələdiyyələr və məmur kontingenti də bu prosesi "həzm" edə bilməlidir. Hələlik bələdiyyələrdə çevik və stabil icra aparatı yoxdur. Oturuşmuş, yüksək ixtisaslı, səriştəli bələdiyyə qulluqçusu korpusu tam formalaşmayıb. Odur ki, bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsi hələ tezdir...

Komitə sədri ilə söhbətimiz maraqlı alınmışdı.

Mən də Arif müəllim kimi, əminəm ki, yaxın illərdə Azərbaycanda bələdiyyələr əhalinin problemini daha çevik və səriştəli şəkildə həll edə bilən şəffaf quruma çevriləcəkdir.

***Vüqar Tofiqli***


Mehdi Səlimzadə: "Respublikamızın sosial-iqtisadı inkişafında bələdiyyələrin oz sözü və yeri vardır" — Səhifə. 2

Məqsədimiz seçicilərimizin etimadını doğrultmaqdır — Səhifə. 2

Bələdiyyə qulluqçularının etik davranış qaydaları — Səhifə. 3

"Bələdiyyələr bilməlidirlər ki..." — Səhifə. 4


RƏSMİ XRONİKA



# AZƏRBAYCAN PREZİDENTİ TORPAQ MƏCƏLLƏSİNƏ DƏYİŞİKLİK ETDİ

"Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 57-VQD nömrəli Qanununun tətbiqi barədə

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 57-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 46-cı maddəsinin 2-1-ci bəndinin dördüncü cümləsində nəzərdə tutulmuş sahilboyu zolağın qrafik təsvirini altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 46-cı maddəsinin 2-1-ci bəndinin yeddinci cümləsində nəzərdə tutulmuş xüsusi əhəmiyyətli dövlət obyektlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində müəyyən etsin;

1.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 46-cı maddəsinin 2-1-ci bəndinin yeddinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

3. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə tapşırılsın ki:

3.1. Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 46-cı maddəsinin 2-1-ci bəndinin dördüncü cümləsində nəzərdə tutulmuş sahilboyu zolağın kağız üzərində və rəqəmsal formada qrafik təsvirini (müvafiq döngə nöqtələri və onların koordinatları, sahilboyu zolağın 20 metrdən 50 metrədək müəyyənləşdirilməsinə əsas olan su səthinin quru ilə təmas xəttinin mövcud və təbii təsirlərlə əlaqədar dəyişən vəziyyəti göstərilməklə) dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.2. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaq sahələrindən istifadə vəziyyətini araşdırsın, mehmanxana-turizm obyektləri istisna olmaqla, həmin torpaq sahələrindən Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 46-cı maddəsinin 2.1-ci bəndinin tələbləri pozulmaqla faktiki istifadə halları ilə bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 188-ci, 314-1-ci və 314-2-ci maddələrində nəzərdə tutulmuş əməllərin əlamətlərini aşkar etdikdə, bu barədə Azərbaycan Respublikasının Baş Prokurorluğuna və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə məlumat versin;

3.3. bu Fərmanın 3.2-ci bəndində nəzərdə tutulmuş tapşırığın icrası ilə bağlı görülmüş işlər barədə hər altı aydan bir Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti

***Bakı şəhəri, 15 yanvar 2016-cı il.***

# Mehdi Səlimzadə: "Respublikamızın sosial-iqtisadı inkişafında bələdiyyələrin oz sözü və yeri vardır"

"Demokratik hüquqi cəmiyyətin möhkəmlənməsinin əsas prioritet istiqamətlərindən biri hər bir ölkənin bələdiyyə sisteminin inkişafıyla bağlıdır"- bu fikri Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Mehdi Səlimzadə Belediyye.info saytının əməkdaşıyla söhbətində deyib. Onun sözlərinə görə, demokratik cəmiyyəti formalaşdıran əsas mexanizmlərindən olan bələdiyyə sisteminin yerli özünüidarənin inkişafi hiss edilməyən ölkələrdə demokratik prinsiplərin qorunması mümkün deyildir:

"Bü gün Azərbaycanda yaradıcısı Ulu öndər Heydər Əliyev olan bələdiyyə sistemi cəmiyyətin yeni bir atributuna çevrilib. Qanunvericilik bazası mütəmadi olaraq təkmilləşdirilir. Sistemin fəaliyyətinə maneə yaradan amillər aradan qalıdırılır, hər bir addımla sistemin inkişafına şərait yaradılır. Bu gün hüquqi demokratik dövlətdə qanunvericliyin təkmilləşdirilməsi onun müasir dövrün tələblərinin uyğunlaşdırılması inkişafı şərtləndirən amillərdəndir. On beş il ərzində fəaliyyətdə olan bələdiyyə sistemi ölkəmizdə yerli özünüidarəetmə sahəsində ciddi addımlar atmaqla, sistemin qarşılaşdığı problemlər də sürətlə öz həllini tapmaqdadır."



Mərkəz rəisinin sözlərinə görə, "əmlak vegisinin yığımındakı yeniliklər, şəffafılq prinsiplərinin qorunması istiqamətində atılan addımlar, bələdiyyə torpaqlarının və sənədsiz mənzillərə hüquqi status verilməsiylə bağlı atılan addımlar ondan xəbər verir ki, dövlətimiz bu sistemin inkişafına daim diqqət mərkəzində saxlayır.

On beş il ərzində bələdiyyə sisteminin ən böyük nailiyyəti məhz onların bir struktur olaraq ictimaiyyətdə nüfuzun artmasıdır. Bu gün hər bir seçici bələdiyyəsinin hansı formada fəaliyyət göstərməsi haqqında bilgilidir. Bu bələdiyyənin qarşısında duran əsas vəzifə isə məhz ictimaiyyət arasında olan nüfuzunu artırmaqla neqativ hallara yol verməmək, seçicisinin qarşılaşdığı problemləri anındaca həll etməkdir.

Söz yoxdur ki, respublikamızın sosial-iqtisadı inkişafında bələdiyyələrin oz sözü, yeri olub və vardır. Qazanılan hər bir nailiyyət nəzərə almaq lazımdır min bir çətinlik hesabına, o cümlədən təcrübəsizlik, kadr potensialının yoxluğu, bəzi hallara müfaviq icra orqanlarının bu orqanlara şərait yaratmamasına rəğmən qazanılıb."

Mülkiyyət və əmlakla bağlı son günlər atılan addımlara toxunan M.Səlimzadə bu istiqamətdə edilən institsional dəyişikliklər ümumilkdə prosesin inkişafına təkan verən addımlardan sayır.

Rəisin sözlərinə görə, bu gün ölkə bələdiyyələrinin qarşılaşdığı əsas problemdə məhz bununla bağlıdır. Ancaq etiraf etmək lazımdır ki, bəzən bələdiyyə sədrlərinin ciddi şəkildə hüquqpozmaları bu prosesə ciddi zərbə vurur.

Əsasən torpağın təyinatı üzrə istifadə edilməsində ciddi qanun pozuntularına yol verilib. Nəticədə Mərkəzin atdığı addımlar sayəsində son 5 ildə 21 000 ha qanunsuz verilən torpaq geri qaytarılıb ki, bunda 11 000 ha kənd təəsrrüfatı təyinatlıdır. Qeyd edim ki, cari ildə bu rəqəm 350 ha olub.

Bu istiqamətdə ötən illər ərzində bələdiyyə sədrlərinə qarşı 2263 inzibati protokol tərtib edilmiş, son beş ildə 1921 bələdiyyə sədri inzibati məsuliyyəti cəlbə edilmişdir. Xüsusiylə qeyd edilməldir ki, belə neqativ halların baş verməsində əsas günahkar bələdiyyələr olmaqla yanaşı, bu prosesə rəvac verən rayon icra hakimiyyətlərinin verdiyi qanunsuz rəylərində böyük rolu olmuşdur.

Yeri gəlmişkən digər bir məsələyə də toxunmaq istərdim:

- Bu gün bələdiyyələrinin bir çoxunun inzibati bina məsələsi öz həllinui tapmamışdır. Buna səbəb kimi bir tərəfdən imkanı olan bələdiyyələr vaxtında vəsaiti məqsədsiz yerə yönəltmələri olmuşdursa, digər tərəfdən Xalq Deputatlari Soveti ləgv edilərkən onların əmlakının bələdiyyəyə verilməməsiylə bağlıdır.

Bü gün dövrüyyəsi kifayət qədər yüksək olan Sumqayıt bələdiyyəsinin inzibati binasının olmaması təəsüf doğurur. Bundan əlavə cənab prezidentin imzaslyla qüvvəyə minən torpaqla bağlı son qərar torpaqların qanunsuz zəbt edilməsinin qarşısını alacağına əminik.

Müvafiq orqanlar tərəfindən bələdiyyələr tərəfindən əkinə yaralı torpaqların mövsümi icarəyə verilməsindəki ləngimələr hər iki tərəfə, həm bələdiyyələrə, həm də vətəndaşlara ciddi təsir edir. Bu prosesin hərracdan kənar həyata keçirilməsi daha məqbul sayılmaldır.

Vegilərin yığımında ciddi çətinliklərlə üzləşən bələdiyyələrə bu istqamətdə addımların atılması bələdiyyələrə əlavə maliyyə vəsaitinin cəlb edilməsinə imkan verəcəkdir. Mülkiyyət və əmlakla bağlı digər bir ciddi məsələ bələdiyyələrə torpaq fondları haqqında rəsmi yerqurluşu sənədlərinin tam verilməməsidir. Bu gün kifayət sayda bələdiyyə hələ də bu sənədi əldə edə bilməyib.

Bakı bələdiyyələrinə on beş il ərzində hər hansı sənədin verilməməsi nəticədə bələdiyyələr tərəfindən qanunpozuntularına yol açıb, bələdiyyələrə məxsus torpaq sahələri zəbt edilibdir. Kifayət qədər sosial obyektlərin inşa edildiyi halda bununla bağlı bələdiyyənin hər hansı formada rəyi nəzərə alınmaması təəsüf hissi doğurur.

Mərkəz rəisi son olaraq bildirdi ki, cari ildə torpaq və mülkyyyələ bağlı qəbul edilmiş instutsional dəyişkiliklər, prosesin bir pəncərə sistemiylə icrası yaxın günlərdə bələdiyyələrə bu istiqmətdə qarşılaşdığı problemlərin həllinə kömək edəcəkdir.

*"Bələdiyyə Həyatı"*

## Xəbərlər

### Bakıxanov bələdiyyəsi 18 nəfəri işlə təmin edib

Sabunçu rayon Bakıxanov bələdiyyəsi qəsəbədə abadlıq işlərinin yüksək səviyyədə həyata keçirilməsi üçün əlavə olaraq müqavilə yoluyla 18 nəfəri dalandar-xadimə kimi işə götürüb. Bələdiyyə iclasının qərarıyla işə götürülənlər əsasən qəsəbənin aztəminatlı ailələrinin təmsilçiləridir.

Sədr Ramiz Nəsibovun Belediyye.info saytına verdiyi məlumata görə, bələdiyyə bu addımıyla prezident İlham Əliyevin çağırışına qoşulub. 180 manat həcmində əməkhaqqı verilən dalandarların hər biri üçün iş bölgüsü aparılıb.

Sədrin sözlərinə görə, bu gün qəsəbədə aparılan bütün təmizlik işlərini bələdiyyə həyata keçirir: "Məqsədimiz sakinlərin etimadını qazanmaqla yanaşı, onları bələdiyyə verigilərini vaxtında ödəməyə səsləməkdir. Ərazisini təmiz və abad görən sakin, sözsüz ki vergiləri də ödəməyə maraqlı olacaqdır."

***Belediyye.info***

### Lökbatan bələdiyyəsi 300 ailə bayram sovqatı göndərib

"Qurban bayramı münasibətilə Qaradağ rayonu Lökbatan qəsəbəsi ərazisində yaşayan şəhid ailələrinə, az təminatlı ailələrə, sosial əlillərə, bələdiyyə üzvlərinə və qulluqçularına cəmi 289 nəfərə Qurban əti də daxil olmaqla bayram sovqatı paylanılmışdır"- bu barədə məlumatı Belediyye.info saytına Lökbatan bələdiyyəsinin sədri Namizəd İsmayılov verib.

Sədrin sözlərinə görə, eyni zamanda bir neçə imkansız ailəyə qurban ətindən əlavə soğan, kartof, çay və qənd bələdiyyə tərəfindın verilmişdir. Əlavə olaraq imkansız qəsəbə sakinlərinin bayram payları bələdiyyə üzvləri və qulluqçuları tərəfindən ünvanlarına çatdırılmışdır.

***Belediyye.info***

### Rəsulzadə Bələdiyyəsi iməcilik keçirib

M.Ə.Rəsulzadə Bələdiyyəsindən Belediyye.info saytına daxil olan məlumata görə, bələdiyyə tərəfindən hər həftənin sonuncu iş günü ərazidə iməcilik tədbirləri həyata keçirilir. Bələdiyyə tərəfindən 22 avqust 2015-ci il tarixində növbəti iməcilik təşkil edilib. "Baksol yolu" küçəsində geniş miqyaslı təmizlik işləri aparılıb. M.Ə.Rəsulzadə Bələdiyyəsinin əməkdaşlarının həyata keçirdikləri iməcilik nəticəsində sözügedən ərazi ünvansız atılmış məişət tullantılarından və iriqabaritli tullantılardan təmizlənib. Qeyd edək ki, hər iməcilik tədbirlərinə ərazidə məskunlaşan sakinlərdə iştirak edirlər.

Məlumatda daha sonra qeyd edilir ki, küçənin sakinlər tərəfindən zibillənməməsi üçün bələdiyyə tərəfindən əraziyə əlavə zibil qutularının qoyulacağı bildirilir.

***Belediyye.info***

### Səbail bələdiyyəsi özünə inzibati bina tikməyi planlaşdırır

Səbail bələdiyyəsindən Belediyye.infoya daxil olan məlumata görə, bələdiyyə yaxın günlərdə özünə inzibati bina tikməyi planlaşdırır. Artıq bununla bağlı ərazi ayrıması da həyata keçirilib.

Məlumatda o da qeyd edilir ki, bələdiyyənin bu addımı Səbail Rayon İcra hakmiyyəti tərəfindən müsbət dəstəklənib və sənədləşdirmə işinə təkan veriləcəyi bildirilib.

Qeyd edək ki, fəaliyyəti müddətində bələdiyyənin özünə məxsus inzibati binası olmayıb, ötən dövr ərzində bir neçə dəfə yerdəyişmə olub. Odur ki, prosesin bir daha təkrarlanmaması üçün bələdiyyə özünə inzibati bina tikmək qərarına gəlib.

Hazırda layihə-smeta sənədlərinin üzərində işlərin getdiyi bildirilir.

***Belediyye.info***

### Şəmkir bələdiyyəsi "Bala Kəhrizdə" təmir işlərini başa çatdırıb

Şəmkir şəhərinin Morul yaşayış massivində qədimdən mövcud olan "Bala Kəhrizdə" son vaxtlar suyun həcminin azalması hiss edilirdi. Bu barədə məlumatı Şəmkir bələdiyyəsi yayıb.

Məlumatda qeyd edilir ki, suyun azalmasının əsas səbəbi kəhrizin son illər təmizlənməməsiylə bağlı olub. Bundan əlavə sakinlər tərəfindən müəyyən tullantıların kəhrizə atılması, o cümlədən müəyyən su sızmaları nəticəsində suyun həcmi xeyli azalmışdır.

Şəmkir rayon İcra Hakimiyyətinin təşəbbüsü və Şəmkir Bələdiyyəsinin yaxından iştirakıyla Bala Kəhrizdə əsaslı təmir işlərinə start verilib.

Bələdiyyənin təşkilatçılığı ilə Tovuz rayonundan kənkanlar dəvət olunaraq kəhrizin təmizlənməsi üçün müqavilə bağlanıb.

Xəbər verildiyi kimi, 18 gün ərzində 23 quyu əsaslı şəkildə təmir edildi.

Quyulardan saysız hesabsız tullantılar, daş və s .təmizlənərək müəyyən hörgü işləri aparıldı.

470 m boru kəməri çəkilərək ərazidə yaşayanların su təminatı yaxşılaşdırıldı.

Hazırda "Bala Kəhriz" əvvəlki səviyyəsinə gətirilib.

Məlumatda daha sonra qeyd edilir ki, su mənbəyindən ətrafda yaşayan vətəndaşlara su çəkilişi ilə yanaşı təmir nəticəsində artan su hesabına suya ehtiyacı duyulan Morul adına orta məktəbin həyətinə, Məmmədəli Əhmədov adına orta məktəbin həyətinə su çəkilmiş. Səməd Vurğun küçəsində ehsanat üçün tikilmiş "Müseyib Qənbər oğlu" adına mənbəyə suyun verilməsi bərpa edilib.

***Belediyye.info***

### Xocasən bələdiyyəsində iclas keçirilib

Xocasən bələdiyyəsində bələdiyyə qulluqçularının və qəsəbə icra nümayəndəliyin iştirakıyla iclas keçirilib. İclasda Prezident İlham Əliyev tərəfindən son dövrlər imzalanan Fərman, Qanun və Sərəncamlar, o cümlədən 1 noyabr 2015-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilərlə bağlı əməkdaşlar məlumatlandırılıb.

Bələdiyyədən daxil olan məlumata görə, iclasda Binəqədi rayon İcra Hakimiyyəti başçısının rəhbərliyi ilə keçirilən müşavirədə qeyd olunan məsələlər də müzakirə edilib.

İclasda bələdiyyə sədri Anar Abbasov məruzə ilə çıxış edib.

***Belediyye.info***

### Zığ bələdiyyyəsi qəsəbədə abadlıq işlərinə start verib

Ziğ bələdiyyəsi qəsəbə ərazisində ciddi şəkildə abadlıq işlərinə start verib. Bu barədə məlumat verən bələdiyyə sədri Kənan Nəsrullayev Belediyye.infoya bildirib ki, bələdiyyə artıq abadlıq işlərinə başlayıb. Bununla bağlı əsas diqqət qəsəbənin təmizliyini diqqətdə saxlamaqdır. Qəsəbənin mərkəzi küçəsində yaşıllıq ilərinə başlamaq üçün hazırlıq həyata keçirilir. Ərazi zibil tullantılarından təmizlənir.

Sədrin sözlərinə görə, digər əsas işimiz əhali arsında maarifləndirmə işlərini həyata keçirməkdir.

Bir tərəfdən ciddi şəklidə vergilərin vaxtında ödənməsi bildirilirsə, digər tərəfdən sakinlərin qəsəbənin təmizliyinə diqqət yetirmələri tələb olunur.

***Belediyye.info***

### Lökbatanda "Yerli Demokratiya Həftəsi"

**"Multikultural cəmiyyətdə həyat: hörmət, dialoq və qarşılıqlı fəaliyyət" devizi ilə Azərbaycanda keçirilən "Yerli Demokratiya Həftəsi" çərçivəsində Qaradağ rayonu Lökbatan bələdiyyəsi sakinlərlə görüş keçirib. Bu barədə məlumatı Belediye.infoya Lökbatan bələdiyyəsindən veriblər.**

Verilən məlumata görə, görüşdə Lökbatan bələdiyyəsinin sədri Namizəd İsmayılov "Yerli Demokratiya Həftəsi"nin əhəmiyyətindən danışaraq, həftə ərzində bir sıra ciddi əhəmiyyətli işlərin həyata keçirildiyini qeyd edib. Onun sözlərinə görə, bu qəsəbədə azərbaycanlılarla yanaşı ruslar, belaruslar, tatarlar və digər xalqların nümayəndələri yaşayır. Uzun illərdir bir yerdə yaşayan xalqların nümayəndələri bu gün çiyin-çiyinə çalışaraq bütün problemlərin həllinə birgə nail olublar.

Çıxışında bələdiyyənin fəaliyyətinə də toxunan sədr ilin sonunadək yerliöznüidarəetmə orqanı tərəfindən həyata keçirilən layihələrdən söz açaraq, sakinlərin bu işlərdə fəal iştirak etmələrinin zəruriliyini vurğulayib.

Sonda sakinlərin qaıdırdğı problemlərin birgə həlli yolları müzakirə edilib.

Bu cür görüşlərin davam etdirilməsi və mütəmadi olaraq keçirilməsi qərara alınıb.

***Belediyye.info***

### Bələdiyyə memorial abidə kompleksində abadlıq işlərini həyata keçirib

**Sabunçu rayonu Ramana bələdiyyəsinin sədri İntizar Rzayevanın Belediyye.info saytına verdiyi məlumata görə, bələdiyyə hesabat dövründə 11 iclas keçirib. İclaslarda ümumilkdə 32 məsələ müzakirəyə çıxarılaraq hər birinə ayrıca qərar qəbul edilib.**

Ramanı bələdiyyəsi qəsəbənin abadlığı naminə ciddi addımlar atır. Sədrin sözlərinə görə, cari ilin altı ayı ərzində qəsəbədə yerləşən şəhidlərimizin və II dünya müharibəsində həlak olanların memorial abidəsinin ucaldığı parkda dekorativ ağac və kol növləri əkilmiş, mövcud ağaclara biotexniki xidmət göstərilmişdir. Ümumilikdə cari təmir işlərinə bələdiyyə büdcəsindən 600 manatdan artıq vəsait ayrılıb.

İntizar Rzayevanın sözlərinə görə, 6 ay ərzində aztəminatlı və şəhid ailələri də diqqətdən kənarda qalmayıb. 10 nəfər aztəminatlı qəsəbə sakininin sosial yardımla bağlı ərizələrinə baxılaraq və müvafiq qərar qəbul edilib.

Qarşımızda duran əsas məsələlərdən biri vergi və ödənişləri tam toplamaqla nəzərdə tutduğumuz sosial yönümlü layihələri həyata keçirməkdir.

### 520 manat bələdiyyə büdcəsinə necə daxil olub?

**"Bizdə avtodayanacaqlardan gəlir daxil olur. Amma bu istiqamətdə problemlərimiz var"- bu fikri Belediyye.infoya Binəqədi rayon Binəqədi qəsəbə Bələdiyyəsinin sədri Aytac Əliyeva bildirib.**

Sədrin fikrincə, əsas problem ondadır ki, qəsəbədaxili yollar bələdiyyənin yox, "Azəryolservisin"in balansındadır. Amma problemin aradan qaldırılması istiqamətində işlər aparırıq.

Aytac Əliyevanin sözlərinə görə, bələdiyyə ilk dəfədir ki, 2015-ci ildə bu istiqamətdən 520 manat vəsait toplaya bilib. Cari ilin büdcəsində bu rəqəmin daha yüksək olacağına çalışacağıq.

***Belediyye.info***

# Məqsədimiz seçicilərimizin etimadını doğrultmaqdır

**Bələdiyyə - qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz mülkiyyəti və yerli büdcəsi olur və o, Azərbaycan Respublikasının Konstitusiyası ilə səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir.**

Bələdiyyə orqanları - səlahiyyətləri çərçivəsində yerli əhəmiyyətli məsələləri həll etmək üçün bələdiyyə qulluğunun təşkili məqsədilə bələdiyyə tərəfindən yaradılan və dövlət orqanları sisteminə daxil olmayan orqanlardır.

Son illər ərzində dinamik sosial-iqtisadi inkişaf yolunda uğurla irəliyən Azərbaycanda insanların rahatlığı, əhalinin rifahının yüksəldilməsi üçün ciddi addımlar atılır. Yeni yollar çəkilir, müasir parklar və xiyabanlar salınır, bütün infrastruktur sahələr mövcud tələbata uyğunlaşdırılır. Bu gün Azərbaycanda hüquq, demokratik, dünyəvi dövlət quruculuğu işləri uğurla həyata keçirilir. Ölkə prezidenti cənab İlham Əliyevin davam etdirdiyi bu siyasətin nəticəsi kimi yerli özünüidarəetmə sistemi getdikcə möhkəmlənir və bələdiyyələrin ölkə daxilində baş verən müsbət dəyişikliklərdə rolu aydın görünür. Bələdiyyələrin ildən-ilə inkişaf etdikləri və idarəçilikdə hansı mövqedə durduqları, rayon əhalisi ilə birgə iş görmələri nəzərdən yayınmır.

Bu gün bələdiyyələr çalışırlar ki, insanlar dövlətin diqqət və qayğısının onların üzərində olduğunu daim görsün və hiss etsin.

Nərimanov Bələdiyyəsi öz fəaliyyətini ölkə prezidentinin bələdiyyələri fəaliyyəti ilə bağlı verdiyi fərman və sərəncamları, Milli Məclisin yerli özünüidarəetmə ilə bağlı qəbul etdiyi qərarları,"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn mühüm vəzifələri, rayon icra hakimiyyətinin sosial-iqtisadi inkişaf proqramı, respublika Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin və Azərbaycan şəhər Bələdiyyələri Milli Assosiasiyasının tövsiyyələri çərçivəsində həyata keçirib.

Nərimanov Bələdiyyəsinin inzibati binasında 2015-ci ilin hesabat yığıncağında bələdiyyə fəalları, məhəllə komitələrinin üzvləri və rayon sakinləri iştirak ediblər. Yığıncaqda çıxış edənlər məhəllədaxili yolların abadlaşdırılmasına görə Nərimanov Bələdiyyəsinə sakinlər adından dərin minnətdarlıq bildiriblər.

Qeyd edim ki, hesabat dövründə bələdiyyənin 15 iclası keçirilmiş, müvafiq qərarlar qəbul edilmişdir. Bələdiyyənin və onun komissiyalarının iclaslarında qəbul edilmiş qərarlar əsasən yerli özünüidarəetmənin inkişafı və təkmilləşdirilməsi, bələdiyyə mülkiyyətinin idarə edilməsi, bələdiyyə məhəllə komitələrinin fəaliyyəti, sosial müdafiə, dövlət bayramları və tədbirləri, rayonun sosial inkişafı sahəsində, o cümlədən bələdiyyə ərazisinin yaşıllaşdırılması və abadlaşdırılması, məhəllədaxili yolların təmiri sahəsində təklif olunan layihələrin icrası kimi məsələləri əhatə etmişdir.

Hesabat dövründə Nərimanov Bələdiyyəsinə 81 xidməti məktub və 676 ərizə daxil olmuşdur. Bələdiyyə rəhbərliyinin və İcra aparatının qəbulunda 1000 nəfər vətəndaş olmuşdur. Hesabat dövrü ərzində Nərimanov Bələdiyyəsinə daxil olmuş ərizə və müraciətlərin baxılması müəyyən edlmiş müddət ərzində təmin edilmişdir.

2015-ci ilin illik hesabatında yerli büdcənin gəlirləri 531.063 manat təşkil etmişdir. Nərimanov Bələdiyyəsinin büdcə-



sinə torpaq vergisindən 9.800 manat, əmlak vergisindən 430.353 manat, torpağın icarə haqqından 47.203 manat, digər gəlirlərdən 43.707 manat daxil olmuşdur. Hesabat dövründə yerli büdcənin xərcləri 582.195 manat təşkil etmişdir ki, 96.311 manat abadlıq işlərinə, 56.030 manat sosial yardımlara, 74.521 manat isə sair xərclərə sərf edilmişdir.

Yerli büdcənin vəsaiti əsasən küçə və məhəllələrin abadlaşdırılması, az təminatlı ailələrin sosial durumlarının yaxşılaşdırılması, yas mərasimlərinin keçirilməsi, rayon əhalisinin maddi rifah halının yüksəldilməsi, bayram və tədbirlərin keçirilməsi kimi işlərə sərf edilmişdir.

Belə ki, rayon ərazisində yaşayan kimsəsiz, tənha qocalara, xəstə və əlillərə, ehtiyacı olan digər insanlara maddi yardım göstərilmişdir. 15 ailə himayəyə götürülmüş, 29 ailəyə isə birdəfəlik maddi yardım edilmişdir.

Nərimanov Bələdiyyəsi 2015-ci ildə yerli sosial müdafiə proqramı əsasında il ərzində bir sıra tədbirlər həyata keçirmişdir. Bələdiyyənin inzibati binasında xalqımızın ən önəmli milli bayramı olan Novruz bayramı yüksək səviyyədə qeyd edilmişdir. 2009-cu il sentyabrın 30-da Novruz YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan edilmişdir. Bayram tədbirinə rayon ərazisində yerləşən cəmiyyətlər, kimsəsiz qocalar, aztəminatlı və şəhid ailələri dəvət edilmişdir. 200 ailəyə, "Ramazan" bayramı münasibətilə 160 ailəyə bayram payları, "Qurban" bayramında isə 250 ailəyə qurban payları paylanmışdır.

Mart ayının 31-də Azərbaycan xalqının soyqırımı günü və Respublika gününə həsr edilmiş tədbirlərdə bələdiyyə üzvləri, İcra aparatının əməkdaşları və məhəllə komitələrinin nümayəndələri birgə iştirak etmişlər.

Nərimanov Bələdiyyəsinin ərazisində səkkiz ünvanlarda yeni məhəllə komitələri yaradılmışdır. "Uşaqlar cəmiyyətimizin sabahıdır", onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi bizim əsas məqsədimizdir. Hər il olduğu kimi bu il də 1 iyun "Uşaqların Beynəlxalq Müdafiə Günü" münasibəti ilə rayon ərazisində yerləşən 49 № li körpələr evi-uşaq və 89 №-li sanator tipli uşaq bağçalarında bayram şənliyi təşkil edilmiş, şirniyyat stolları açılmış, musiqili-əyləncəli proqramlar təşkil olunmuş və uşaqlara hədiyyələr təqdim edilmişdir.

Nərimanov Bələdiyyəsi rayon ərazisində Ə.Rəcəbli küçəsi ilə F.X.Xoyski prospektinin kəsişməsinə qədər iməclik təşkil etmişdir. İməclikdə yeni tinglər əkilmiş, yol boyunca əkilmiş ağacların dibləri bellənmiş, təmizlənmiş, suvarılmış və əhənglə ağardılmışdır.

Nərimanov Bələdiyyəsi rayon ərazisində abadlıq işlərini davam etdirir. Növbəti abadlıq işləri N.Hacıyev küçəsi 13 və F.Yusifov küçəsi 28 saylı binaların həyətində, F.Yusifov küçəsi 26, 28A, 30, 30A, Ə.Əliyev küçəsi 41, Təbriz küçəsi 54/39 saylı binaların həyətlərində, F.Yusifov küçəsi 101 saylı ünvanda yerləşən S.C.Pişəvari adına gimnaziyanın qabağında. Təbriz küçəsi 2, Ak.H.Əliyev küçəsi 134 saylı binanın həyətində və F.Yusifov küçəsi 40-ın Ak.H.Əliyev küçəsi 134 -ün kəsişməsində asfalt örtüyü təzələnmişdir.

2015-ci ildə "Bir bələdiyyə - azı bir layihə" təşəbbüsü çərçivəsində 96311 manat dəyərində 12 layihə həyata keçirilmişdir. layihənin əsas məqsədi bərbad vəziyyətdə olan küçə və məhəllədaxili yolların yenidən bərpasıdır. Həyata keçirilmiş layihələr barədə bələdiyyənin internet saytında məlumat və fotolar yerləşdirilmişdir.

2015-ci ilin oktyabr ayının 12-dən 18-dək keçirilən yerli demokratiya həftəsi çərçivəsində rayonumuzun ayrı-ayrı məhəllələrində sakinlərlə bələdiyyə üzvlərinin görüşləri keçirilmişdir. Tədbirlərdə əhalinin, o cümlədən gənclərin və qadınların daha fəal iştirakına xüsusi diqqət yetirilmiş, "vətəndaş-bələdiyyə", "bələdiyyə-vətəndaş" əlaqələrinin genişlənməsinə nail olunmuşdur.

Ötən illərdə olduğu kimi bu il də Nərimanov bələdiyyəsində "açıq qapı" günləri elan edilmiş, "dəyirmi masa" görüşləri keçirilmiş, sakinlərin təklif və müraciətlərini öyrənmək, onları operativ qəbul etmək üçün "qaynar telefon xətti" (496-96-51) yaradılmış, sakinlərlə birbaşa canlı təmas qurulmuş, qaldırılan məsələlərin qeydə alınması və cavablandırılması təşkil edilmiş, onların yerlərdəki problem və qayğıları öyrənilmiş, imkan daxilində mümkün olanları yerində həll edilmişdir.

Yerli demokratiya həftəsi üçün xarakterik olan "açıq qapı" günləri Nərimanov Bələdiyyəsində il boyu davam edir. Bələdiyyəyə üz tutub, pənah gətirənlər tənha, imkansız, xəstə qocalar, bir sözlə köməyə ehtiyacı olan insanlardır. Bələdiyyə hər zaman onları qəbul etməyə, qayğı göstərməyə, istər şad gündə, istərsə də ağır gündə onlara maddi mənəvi köməklik etməyə borcludur.

Nərimanov Bələdiyyəsi 2016-cı ildə rayonun daha da abadlaşması və sakinlərin xoş rifahı üçün daha dinamik, daha mütəşəkkil işləməyi öz öhdəsinə götürür.

***Təmraz Tağıyev***
***Nərimanov Bələdiyyəsinin sədri***

# Bələdiyyə qulluqçularının etik davranış qaydaları



**Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra ümumilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkədə hüquqi, demokratik dövlət quruculuğana başlanmış, ölkədə geniş miqyaslı iqtisadi, sosial və hüquqi islahatlar aparılmışdır.**

Hazırda bu islahatlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan Respublikasının, müstəqil dövlət kimi, 12 noyabr 1995-ci ildə ümumxalq səs verməsi (referendum) yolu ilə qəbul edilmiş ilk Konstitusiyasının 142-146-cı maddələri bələdiyyələrin fəaliyyətinə həsr edilmişdir. Konstitusiyanın 142-ci maddəsinin 1-ci hissəsində göstərilir ki, yerli özünüidarəni bələdiyyələr həyata keçirir.

Həmçinin, 2 iyul 1999-cu ildə «Bələdiyyələrin statusu haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Həmin Qanunun 18-ci maddəsinin 2-ci bəndinə əsasən bələdiyyənin icra aparatının fəaliyyətinə bələdiyyə sədri rəhbərlik edir. Əgər, konkret şəraitdən aslı olaraq, bələdiyyədə sədr müavini vəzifəsi ştatı vardırsa bələdiyyənin sədr müavini eyni statusa malikdir.

Etik normalar, başqa sözlə, əxlaq normaları hüquq normaları hesab edilmir. Lakin etik normalar müvafiq dövlət və ali hakimiyyət orqanları tərəfindən təsdiq edilirsə bu zaman onların icrası məcburi xarakter daşıyır.

İndiyə kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 31 may 2007-ci il tarixdə «Dövlət qulluqçularının etik davranış qaydaları haqqında» Qanun imzalamış, 1 mart 2011-ci ilədək olan əlavə və dəyişikliklərlə hazırda qüvvədədir.

*İlham Abbasov,*
*Ədliyyə Akademiyasının*
*baş müəllimi-hüquq üzrə*
*fəlsəfə doktoru*
*baş ədliyyə müşaviri*
*prokurorluğun fəxri işçisi*

Həmçinin, Azərbaycan Respublikasının Ədliyyə Naziri tərəfindən 29 noyabr 2007-ci il tarixli 41-T №-li əmri ilə «Ədliyyə orqanları işçilərinin etik davranış Qaydaları təsdiq edilmişdir».

Azərbaycan Respublikası Baş Prokurorluğunun 8 fevral 2008-ci il tarixli kollegiya iclasının qərarı ilə «Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış kodeksi» təsdiq edilmişdir.

Hazırda isə Azərbaycan Respublikası Milli Məclis tərəfindən «Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və həmin Qanun Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən 28 aprel 2015-ci il tarixdə imzalamaqla, 11 iyun 2015-ci il tarixdə «Respublika» qəzetində dərc edilmiş və həmin gündən qüvvəyə minmişdir.

Qanunun preambulasında göstərilir ki, bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, bələdiyyə qulluqçuları üçün etik davranış qaydalarını və prinsiplərini, habelə həmin qayda və prinsiplərə əməl olunması ilə bağlı hüquqi mexanizmləri müəyyən edir.

Həmin Qanunun 1.1-ci maddəsində göstərilir ki, bu Qanun bələdiyyə qulluqçusu statusu olan bütün şəxslərə şamil edilir. Hər bir bələdiyyə qulluqçusu Qanunun aliliyini, İnsan hüquqlarını, demokrtaik prinsipləri və etik davranış qaydalarını rəhbər tutaraq, Qanunun tələblərinə əməl etməyə borcludur.

Sözügedən Qanun yerli özünüidarə orqanlarının və bələdiyyə qulluğunun nüfuzunu artmasına, vətəndaşların yerli özünüidarə orqanlarına və bələdiyyə qulluqçularına etimadını yüksəlməsi, yerli özünəidarə orqanları və bələdiyyə qulluqçularının fəaliyyətində səmərəliliyinin və şəfa artırılması, yerli özünəidarə orqanlarında korrupsiyasının və bələdiyyə qulluqçularının fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması, bələdiyyə qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl edilməsi bu Qanunun məqsədidir.

Bələdiyyə qulluqçusunun xidməti davranışı onun qanunla müəyyən olunmuş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar fəaliyyətdir. Bələdiyyə qulluqçusunun xidməti fəaliyyəti etik davranış qaydalarına və prinsiplərinə əsaslanmalıdır.

Bələdiyyə qulluçusu etik davranışı və peşəkar fəaliyyəti ilə özünüidarə orqanlarına inamı artırmalı və möhkəmlətməlidir. Bələdiyyə qulluqçusu insan hüquq və azadlıqlarına, qanuni maraqlarına, şərəf və layaqətinə, həmçinin, hüquqi şəxslərin işgüzar nüfuzuna xidmət etməlidir.

Qanunun tələbinə görə bələdiyyə qulluqçusu bütün şəxslərlə, o cümlədən birbaşa və yuxarı rəhbəri və ya tabeçiliyində olan şəxslərlə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbrli olmalıdır. Həmçinin, o birbaşa və ya yuxarı rəhbərini qanunlara uyğun olan və səlahiyyəti daxilində qəbul etdiyi bütün yazılı əmri, sərəncamı və ya verdiyi tapşırıqları yerinə yetirməyi borcludur.

«Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında» Azərbaycan Respublikasının Qanunun 11.1-ci maddəsinə əsasən Bələdiyyə qulluqçusuna qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, bələdiyyə qulluqçusu onlardan imtina etməlidir. Maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər bələdiyyə qulluqçusuna ondan asılı olmayan səbəblərdən verilərsə, o, bu barədə birbaşa rəhbərinə məlumat verməlidir və maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər bələdiyyə qulluqçusunun qulluq keçdiyi bələdiyyə orqanına akt üzrə təhvil verilməlidir.

Bələdiyyə qulluqçusu hədiyyənin qəbul edilməsi və ya qonaqpərvərlikdən istifadə ilə bağlı qərara gələ bilmədiyi hallarda bu barədə bələdiyyə qulluqçusu rəhbərliyin rəyini öyrənməlidir. Bələdiyyə qulluqçusu istifadəsində olan bələdiyyə əmlakından, maliyyə vəsaitindən, rabitə kompiyuter və digər kommunikasiya sistemlərindən, nəqliyyat vasitələrindən və digər maddi-texniki təchizat avadanlığında qənaətlə və səmərəli istifadə etməlidir. Bələdiyyə qulluqçusu yerli özünüidarə orqanlarında müəyyən olunmuş xidməti informasiyanın təqdim edilməsi qaydalarına əməl edilməlidir. Bələdiyyə qulluqçusunun ictimai və ya siyasi fəaliyyəti, yaxud ictimai və ya siyasi birliyə mənsubiyyəti onun xidməti vəzifələrini qərəzsiz və obyektiv yerinə yetirdiyinə ictimai şübhə doğurmamalıdır.

Bələdiyyə qulluqçusu etik davranış qaydalarına əməl olunmasını təmin etməlidir.

Etik davranış qaydalarına əməl olunmasına bələdiyyənin sədri nəzarət edir.

Həmçinin, etik davranış qaydalarının pozulması bələdiyyə qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır.

Qanunun 20-ci maddəsinə əsasən etik davranış qaydalarının pozulmasına görə aşağıdakı intizam məsuliyyəti tədbirlərindən tətbiq edilə bilər:

- töhmət vermək;
- sonuncu xəbərdarlıqla şiddətli töhmət vermək;
- aşağı vəzifəyə keçirmək;
- bələdiyyə qulluğundan azad etmək.

İntizam tənbehi tətbiq edilərkən bələdiyyə qulluqçusunun şəzsiyyəti, kollektivdə nüfuzu,peşəkarlıq səviyyəsi, onun törətdiyi xətanın xarakteri nəzərə alınmalıdır. Sözügedən Qanunun 20.1-ci maddəsində göstərilmiş intizam tənbehlərindən hər hansı biri tətbiq olunmadan bələdiyyə qulluqçusuna yazılı və ya şifahi qaydada xəbərdarlıq edilə bilər.

Qanunun tələbinə görə etik davranış qaydalarının pozmuş bələdiyyə qulluçusu barəsində intizam məsuliyyəti tədbiri pozuntunun aşkar edildiyi gündən etibarən 30 gün ərzində tətbiq edilir.

Sonda bu qənaətdəyik ki, bütün bələdiyyə qulluqçuları etik davranış qaydalarına cidd əməl edəcək, bu isə bələdiyyələrin daha səmərəli fəaliyyətinə, nəticə etibarı ilə bələdiyyələr qarşısında duran vəzifələrin maksimum dərəcədə yerinə yetirilməsini təmin edəcəkdir.

***Belediyye.info***

## Gəncədə bələdiyyələr maarifləndirildi

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Gəncə Regional Ədliyyə Şöbəsində 11-13 noyabr tarixlərində Ədliyyə Akademiyası və Bələdiyyələrlə iş Mərkəzinin əməkdaşlarının iştirakıyla "Maliyyə hesabatlarının mühasibat uçotu standartlarına uyğun hazırlanması" və "Korrupsiya hüquqpozmalarının qarşısının alınması" mövzularında seminar təşkil edilib.**

Seminarda dinləyici kimi Gəncə regional ədliyyə şöbəsinin yurisdiksiyasını əhatə edən yerli özünüidarəetmə qurumlarından 128 nəfər sədr və bələdiyyə quluqçuları iştirak edib.

Tədbiri giriş sözüylə Ədliyyə Nazirliyinin Gəncə Regional Ədliyyə Şöbəsinin rəisi Kəmaləddin Həsənov açaraq bu gün bələdiyyələrin üzərinə düşən vəzifə səlahiyyətlərindən danışaraq bütün məqamlarda qanunun aliliyinin qorunmasına məsuliyyət daşıdıqlarını qeyd edib. Onun sözlərinə görə, bələdiyyə sədrləri qəbul etdikləri qərarları gollegial qəbul etməklə yanaşı, regional şöbəyə vaxtında göndərməlidirlər.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş Mərkəzinin məsul işçisi İsgəndər Orucov hər bir bələdiyyədə şəffaflıq prinsiplərinin qorunmasını xüsusiylə vurğulayaraq, çətin məqamlarda regional və mərkəzə müraciətin edilməsini bələdiyyələri gələcəkdə baş verə biləcək səhvlərdən sığortalamış olur. Onun sözlərinə görə, hər bir bələdiyyə sədri atdığı addımlara görə, məsuliyyət daşıyır.

Ədliyyə Akademiyasının əməkdaşı Qalib Məmmədov "Bələdiyyələrdə şəffaflıq prinsiplərinin qorunması" mövzusunda məruzə ilə çıxış edib. Çıxışında Q. Məmmədov adıçəkilən istiqamətdə qəbul edilən qanunlardan və bələdiyyələrin üzərinə düşən məsuliyyət yükündən danışıb. Onun sözlərinə görə, hazırda ölkəmizdə qəbul olunan qanunlar beynəlxalq standartlara cavab verir. Bununla yanaşı daim qanunlar təkmişlləşdirilir və ölkə vətəndaşlarının, o cümlədən bələdiyyələrin irəli sürdüyü təkliflər nəzərə alınır.

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş mərkəzinin təmsilçisi Zöhrab Fərəcov "Maliyyə hesabatlarının mühasibat uçotu standartlarına uyğun hazırlanması" mövzusunda məruzə ilə çıxış edib. Məruzəsində Z.Fərəcov bələdiyyələrə 2016-ci il büdcəsinin icrasıyla bağlı təklif və tövsiyyələrini verərək, hər bir addımın qanun çərçivəsində atılmasının vacibliyi qeyd edilib.

Onun sözlərinə görə, " bələdiyyələr tərəfindən atılan hər bir addım protokollaşdırılmalı və qanuna söykənməlidir. Bələdiyyələr daim yeniliyə can atmalı, hər bir yeniliyi bələdiyyələrində tətbiq etməyə hazır olmalıdırlar."

Seminarın yekununda məruzəçilər iştirakçıları maraqlandıran sualları cavablandırıblar.

***Belediyye.info***

## Bələdiyyə sədri təklif verib

**"Bakıxanov bələdiyyəsi də "E-manat" elektron ödəniş sisteminə qoşulub"- bu fikirləri Sabunçu rayonu Bakıxanov bələdiyyəsinin sədri Ramiz Nəsibov bildirib. Onun sözlərinə artıq bununla bağlı bələdiyyənin apardığı danışıqlar başa çatıb. Yaxın günlərdə proses aktivləşəcək.**

Bu prosesin tətbiqi həm bələdiyyəyə əlavə vəsaitin cəlb edilməsinə imkan verəcək, həm də şəffaflıq prinsiplərinin qorunması həyata keçiriləcək.

Bununla sədr bələdiyyə sisteminin inkişafına yönələn maraqlı təkliflə də çıxış edib.

Sədrin fikrincə bələdiyyələrin maliyyə vəziyyətinin düzəldilməsi üçün bir sıra addımların atılmasına ehtiyac vardır.

Birinci növbədə verigi məcəlləsində əmlak vergisinin toplanılmasıyla bağlı məqama "istifadəsinə olan" sözünün əlavə edilməsi zəruridir. Yəni bu gün vətəndaşın xüsusi mülkiyyətində, o cümlədən "istifadəsinə olan" əmlakdan verginin yığılması həyata keçirlməlidir. Nəticədə bələdiyyənin inzibati ərazisində olan saysız hesabsız sənədsiz, yəni hüquqi statusu olmayan mənzillərdən də verginin toplanılması həyata keçiriləcək.

İkincisi yaxşı olardı ki, avtodayanacaqlar bələdiyyənin mülkiyyətinə verilsin və bu istiqamətdə daxil olan ödənişlərdə bələdiyyə büdcəsinə daxil olsun. Bu gün bütün növ dayanacaqlardan daxil olan ödənişlər şəhər icra hakimiyyətinin müvafiq qurumuna ödənilir.

Xatırladaq ki, ilk olaraq "E-manat" sisteminə Nəsimi bələdiyyəsi qoşulub.

***Belediyye.info***

## Maraqlı

## "Ən əsası yolun sonunda işığın olmasına inanmağımızır"

Binəqədi rayon Binəqədi Qəsəbə bələdiyyəsinin sədri Aytac Əliyeva yeni ilin ilk iş günündə sosial şəbəkədə maraqlı status paylaşıb. Bələdiyyə sədrinin fikirlərinui oxucularımızın diqqətinə çatdırırıq.

" Sabahınız xeyirli olsun, dostlar.

Bu gündən etibarən yeni ilin ilk iş həftəsidir, günüdür...

Qarşıda bizi uzun bir yol gözləyir. Bu yolda təbii ki, rahat gedəcəyimiz anlar olacaq, büdrəyəcəyik, yayda soyuq qışla, qışda yay istisi ilə qarşılaşacayıq...

Bir zaman yanımızda olanlar, bir də baxacayıq ki, bizdən uzaqdadırlar...

Bizə yad insanlara qucaq açacayıq...

Həyatın min bir sınağına çəkiləcək, bundan dərs alacaq, yorulacaq, hətta üsyan edən anlarımız olacaq...

Amma ən əsası yolun sonunda işığın olmasına inanmağımızır. Ruhdan düşməmək və doğru hədəfə yürümək...

Haqqı itirməmək, xəyanət etməmək, nəfsimizə qalib gəlmək, böyük yeri bilmək, tanımaq, hörmət etmək...

Bax, bu zaman bu ilin sonunda geriyə boylanarkən, başımız uca, üzümüz ağ olacaq!

Nə deyirəm, başladıq...

Yolçu yolunda gərək!"

## Ələmdar Vəfadarov: "Əmlak vergisi yığımında bir sıra çətinliklər yaransa da..."

**"Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi problemlərinin həllinə yönəldilmiş proqram çərçivəsində Nizami rayonu Keşlə qəsəbəsində sosial-iqtisadi problemlərin həlli üçün bir sıra tədbirlər həyata keçirilib." -bu fikirləti Belediyye.info saytına açıqlamasında Keşlə bələdiyyəsinin sədri Ələmdar Vəfadarov bildirib.**



Sədrin sözlərinə görə, Keşlə bələdiyyəsi tərəfindən ötən il qəsəbənin bir sıra küçələrində başlanan abadlıq işləri bu gündə davam etdirilir:

"Belə ki, D.Aslan və I Köndələn küçələrində abadlıq işləri aparılmış, köhnə qurumuş ağacların kəsilməsi və 350-yə yaxın ağacın budanması, kolların tamamilə təmizlənib səliqəyə salınmışdır. Qəsəbənin H.Əliyev prospekti tərəfindən girişi olan bu küçə indi abadlaşdırılaraq gediş-gəliş üçün yararlı hala salınmışdır.

Qeyd edək ki, Keşlə qəsəbəsində yerləşən parkın təmizlənməsi də bələdiyyəyə həvalə olunmuşdur. 1941-1945-ci illərin xatirə kompleksinin yerləşdiyi bu park yaşlı insanların və uşaqların istirahət yeridir. Bunu nəzərə alaraq parkda təmizlik işlərinin aparılması, ağacların sulanması və budanması, işıqlandırma sisteminin yararlı vəziyyətdə olması üçün hər ay oktyabr ayından başlayaraq parkın 2 işçisinə bələdiyyə iclasının qərarıyla əmək haqqı verilir."

Vətəndaşların bələdiyyəyə etdikləri müraciətlərə toxunan sədr bildirib ki, hesabat dövründə Keşlə bələdiyyəsinə ümumilikdə 222 ərizə və 84 məktub daxil olmuşdur:

"Keşlə qəsəbəsində yaşayan sakinlər hər hansı bir məsələ ilə bağlı bələdiyyəyə yazılı və şifahi formada müraciət etdikdə bu məsələlər bələdiyyənin səlahiyyətləri daxilində həll edilir. Əhali və müxtəlif təşkilatlar tərəfindən daxil olan ərizə və məktublara yerindəcə və müəyyən olunmuş müddət ərzində cavab verilir. Qeyd edək ki, bütün ərizə və məktublara operativ, müsbət cavab verilmişdir."

Sədrin sözlərinə görə, bələdiyyə qəsəbə sakinləri ilə sıx əlaqədə olduğu üçün onların problemlərini, sosial vəziyyətlərini yaxından izləyə bilmişdir. Bu səbəbdəndir ki, hər il müxtəlif dini və milli bayramlarda qəsəbənin aztəminatlı təbəqəsi ilə görüşlər keçirmiş, onlara Qurban, Novruz və Ramazan bayramlarında ərzaq yardımları edilmişdir.

2015-ci ildə ümumilikdə 390 nəfər qəsəbə sakini ərzaq yardımı almış, 11 nəfərə isə 1650 manat məbləğində maddi yardım olunmuşdur.

Nizami rayonu 227 saylı tam orta məktəbdə 31 dekabr Dünya azərbaycanlılarının Həmrəyliyi gününə həsr olunmuş "Həmrəyliyimiz əbədidir" mövzusunda inşa-yazı müsabiqəsi keçirilmiş, qalib şagirdlərə pul mükafatı və fəxri fərmanlar verilmişdir

Bələdiyyənin qarşılaşdığı problemlərə toxunan sədr "Azərbaycan Respublikası Vergi Məcəlləsində nəzərdə tutulan fiziki şəxslərin əmlak vergisi məqsədləri üçün Bakı şəhərində yerləşən binalara tətbiq edilən əmsallar" müəyyənləşdikdən sonra fiziki şəxslərin əmlak vergisi yeni əmsallar tətbiq edilməklə hesablanmışdır. Keşlə qəsəbəsi üzrə torpaq və əmlak vergisi yığımında bir sıra müvəqqəti çətinliklər yaransada, əhalinin vergi ödənişlərini asanlaşdırmaq üçün poçt şöbəsində, Azərbaycan Beynəlxalq Bankında və Kapital Bankda hesablar açılmışdır.

Keşlə qəsəbəsində yaşayan əhalinin böyük əksəriyyətinin mülkiyyəti təsdiq edən sənədi olmadığı üçün əmlak vergisini yığdıqda xeyli problemlərlə üzləşirik. Bu məsələ dövlət səviyyəsində həllini tapmış olsa, bələdiyyənin də işlərində xeyli irəliləyişlər olar.

2015-ci ildə bələdiyyənin büdcə gəlirlərinə toxunan sədr maraqlı rəqəmlər açıqlamışdır:

- Yaşayış sahələrindən yığılan rüsumlar: torpaq vergisi – 34201 manat, əmlak vergisi 81564 manat; sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən yığılan rüsumlar: icarə haqqı 3925 manat, mehmanxana rüsumu – 1200 manat, ümumilikdə mədaxil 127.290 manat olmuşdur.

Keşlə bələdiyyəsi həm də Nizami rayonunda yerləşən bir təşkilat olduğu üçün fəaliyyəti zamanı işimizi rayonda yerləşən digər idarə və təşkilatlar, ilk növbədə rayon İcra Hakimiyyəti ilə əlaqəli şəkildə qururuq və işimizi bu səpkidə davam etdiririk. Keşlə bələdiyyəsi bundan sonra da öz fəaliyyətini davam etdirərək bələdiyyə ərazisində mövcud olan problemlərin imkan daxilində uğurla aradan qaldırılmasına, bu ərazidə yaşayan sakinlərin rifah halının yüksəlməsi və rahat yaşamaları üçün əlindən gələni əsirgəməməyə çalışacaq.

***Belediyye.info***

## Balaxanı bələdiyyəsi dam ortüklərini dəyişdirir

**"Bələdiyyəmiz ciddi şəkildə payız - qış mövsümünə hazırlaşır"-bu fikirləri Belediyye.info saytına Sabunçu rayonu Balaxanı bələdiyyəsinin sədri Vüsalə Səlimova bildirib.**

Sədrin sözlərinə görə, cari ildə 15 nəfər aztəmintalı, tənha və ahıl qəsəbə sakini mənzillərinin dam örtüyünün dəyişdirilməsiylə bağlı bələdiyyəyə müaraciət edib. Bələdiyyə icasının qərarıyla hələlik üç qəsəbə sakininin dam örtüyü dəyişdirilib. Dam örtüyünün dəyişdirilməsinə bir min manat yaxın vəsait xərcləndiyini deyən sədrin fikrincə, maliyyə vəsaiti daxil olduqca qəsəbə sakinlərinin qarşılaşdığı problemlərin həllinə tezliklə nail olacağıq.

Doqquz ay ərzində 50 min manata yaxın vəsait toplandığı deyən sədr ərazidə 8167 təsərrüfatın olduğunu bildirdi. Bu mənzillərin demək olar 50 % -dək hissəsinin sənədi yoxdur. Təəssüflə qeyd edilməlidir ki, bu mənzillər mədən ərazilərində olduğundan onların sənədləşdirlməsi də hələ ki mümkün deyildir.

Hazırda bələdiyyədə çalışan dörd vergi müfəttişi bildirişləri paylamaqla yanaşı, əhalı arasında maarifləndirmə işləri də aparır.

***Belediyye.info***

## Xəbərlər

### Türkiyədə "Osmanlı sənədlərində Azərbaycan" kitabı nəşr edilib

**Türk Dünyası Bələdiyyələr Birliyinin dəstəyi və təşkialtçılığı ilə Türkiyədə "Osmanlı sənədlərində Azərbaycan" kitabı nəşr edilib. Layihənin rəhbəri Mərmərə Universitetinin doktoru Fəxri Solak, hazırlayanları isə doktor Əli Yılmaz, doktor Dundar Əliqılınc, Abdulla Sivridağ və Nedim Pakirdağdır.**

Kitabda Osmanlı imperiyası dövründə Azərbaycanla bağlı qəbul edilmiş sənəd və məktubların əsli və sənədin latın qrafikasında yazılışı verilmişdir. Yüksək poliqrafik üslubda nəşr edilən kitab əsasən aradırmalarda istifadə üçün nəzərdə tutulub. Layihə müəlliflərinin fikrincə, Türkiyənin müxtəlif arxivlərində olan sənədlərin bir kitabda cəmləşdirilməsi bu mənbələrdən daha sıx şəkildə tanış olmağa imkan yaradacaqdır.

Qeyd edək ki, Türk Dünyası Bələdiyyələr Birliyinin xəttiylə Azərbaycana həsr olunan sayca üçüncü nəşridir.

### Mərdəkan bələdiyyəsi büdcə müzakirələrinə yekun vurub

**Mərdəkan bələdiyyəsinin sədri Mirbaba Hüseynovun Belediyye.infoya verdiyi məlumata görə, bələdiyyə büdcəsinin layihəsi hər il olduğu kimi bu ildə vaxtında hazırlanaraq ictimai müzakirəyə çıxarılmış, yerlərdən irəli sürülən təkliflər nəzərə alınaraq bələdiyyənin noyabr iclasında təsdiq edilmişdir.**

2015- ci il büdcəsində elə də fərqlənməyən büdcənin sosial yönümlü olduğunu qeyd edən sədr bələdiyyənin qarşılaşdığı problemlərin həlli üçün normativ-hüquqi aktlarda müəyyən dəyişikliyin edilməsinin zəruriliyini qeyd edib.

Belə dəyişikliklər bələdiyyə büdcəsinə ciddi şəkildə müsbət təsir edir və nəticədə sakinlərimizin qarşılaşdığı problemlərin həllinə təkan vermiş olur.

***Belediyye.info***

### Nərimanov Bələdiyyəsi abadlıq işlərini davam etdirir

**"Nərimanov Bələdiyyəsi rayon ərazisində abadlıq işlərini davam etdirir. Növbəti abadlıq işləri N.Hacıyev küçəsi 13 saylı binanın həyətində keçirilib."**

Bu barədə Belediyye.info saytına daxil olan məluatda deyilir ki, gövlət tərəfindən verilmiş dotasiya ilə F.Yusifov küçəsi 28 saylı binanın həyətində asfalt örtüyünün təzələnməsinə xərclənib.

Nərimanov Bələdiyyəsi gördüyü işlərlə kifayətlənmir, rayonun daha da gözəlləşməsi, abadlaşması və sakinlərin xoş rifahı üçün daha dinamik, daha mütəşəkkil işləməyi öz öhdəsinə götürür.

Xatırladaq ki, Nərimanov Bələdiyyəsinin büdcəsinin əsas gəlirləri əmlak və torpaq vergisindən, bələdiyyə əmlakının icarəyə verilməsindən, mehmanxana rüsumu, gecə və son dayanacaqlarından yığılan vergilərdən və sairdən ibarətdir. Büdcəyə daxil olmuş vəsait hesabına Bələdiyyə ərazisində yaşayan, sosial cəhətdən ehtiyacı olan 13 ailəyə birdəfəlik maddi yardım edilmiş, 11 ailə himayəyə götürülmüşdür.

***Belediyye.info***

### Məhkəmə bələdiyyənin xeyrinə qərar çıxarıb

**Xətai bələdiyyəsindən Belediyye.info saytına daxil olan məlumata görə, cari ilin altı ayı ərzində bələdiyyədə keçirilən altı iclasda 34 məsələ müzakirə edilərək müvafiq qərarlar qəbul edilib.**

Qeyd edək ki, hazırda bələdiyyədə üç daimi komissiya fəaliyyət göstərir. Bunlardan hesabat dövründə "Yerli Büdcə və iqtisadi inkişaf məsələləri" Daimi komissiyasının 6 iclasında 9 məsələ, "Yerli Sosial və Ekologiya məsələləri" Daimi komissiyasının 5 iclasında 11 məsələ, Hüquq komissiyasınnın keçirilən 4 iclasında, 4 məsələ müzakirə edilib.

Hesabat dövründə bələdiyyə ərazisində yaşayan vətəndaşlardan 103 ərizə, idarə və müəssisələrdən 63 məktub daxil olub. Sakinlərə və idarə müəssisələrinə 527 məktub göndərilib. İdarə daxilində 14 ərizə öz həllini tapıb.

Məlumatda daha sonra qeyd edilir ki, hesabat dövrü ərzində bələdiyyə tərəfindən müxtəlif məhkəmələr qarşısında 7 mülki iş üzrə iddia qaldırılıb ki, onlardan 5-i bələdiyyənin xeyrinə həll olunub. İki iş isə vergi ödəyicilərinin bələdiyyəyə olan borcun tələbi ilə əlaqədar hazırda məhkəmədə baxılması davam edir.

***Belediyye.info***

### "Azərbaycanda Yerli Demokratiya Həftəsi"

**Mərdəkan bələdiyyəsi 2015-ci ilin oktyabrın 12-dən 18-dək "Azərbaycanda Yerli Demokratiya Həftə"si çərçivəsində bir sıra tədbirlər həyata keçirmişdir. Bu barədə məlumatı Xəzər rayonu Mərdəkan bələdiyyəsindən veriblər.**

Tədbirlərdə məqsəd bələdiyyə ilə əhalinin təmaslarını bir qədər də möhkəmləndirmək, cəmiyyətin demokratikləşdirilməsi istiqamətində işləri daha da surətləndirmək, yerlərdəki problemlərin həllində insanların birgə fəaliyyətini təmin etməkdir.

Həftə ərzində qəsəbə ərazisində bir sıra şüarlardan istifadə edilmişdir:

-"Azərbaycanda Yerli Demokratiya Həftəsi"ndə fəal iştirak edək!

- "Vətəndaşları yerli özünüidarəetmədə iştirakını təmin edək"!

Həftə ilə əlaqədar bələdiyyədə "Açıq qapı" günləri təşkil olunmuşdur, vətəndaşların bələdiyyə ilə sıx əlaqələrinin qurulması məqsədilə "qaynar telefon xətti" (012 454-59-83) təşkil olunmuşdur.

Vətəndaşların bələdiyyə ilə operativ əlaqələrinin təmin edilməsi məqsədilə, bələdiyyənin inzibati binasının qarşısında və qəsəbə ərazisində "Bələdiyyə poçt qutu"ları quraşdırılıb.

Həftə çərçivəsində qəsəbənin 181 və 123 nömrəli tam orta məktəblərində görüşlər keçirilmişdir. Müəllim və şagirdlərə Mərdəkan bələdiyyəsinin fəaliyyəti haqqında məlumatlar verilmiş, onlar tərəfindən daxil olan suallar cavablandırılmış və bələdiyyə tərəfindən hazırlanmış maarifləndirici xarakter daşıyan bukletlər müəllim və şagirdlərə paylanmışdır. Əsas məqsəd "Yerli Demokratiya Həftəsi"nin əhəmiyyətini görüş iştirakçılarına çatdırmaq və bələdiyyənin fəaliyyətinin canlandırılması ilə bağlı təklif və arzuların öyrənilib sistemləşdirilməsinin, fəaliyyət üçün əsas kimi qəbul olunmasıdır.

İnanırıq ki, oktyabrın 12-dən 18-dək keçirilmiş "Yerli Demokratiya Həftəsi" bələdiyyəyə vətəndaşların əlaqələrinin daha da dərinləşməsində və yerli əhəmiyyətli problemlərin həllində mühüm rol oynayacaqdır.

***Belediyye.info***

BƏLƏDİYYƏ HƏYATI
BƏLƏDİYYƏLƏR YERLİ ÖZÜNÜİDARƏETMƏNİN DEMOKRATİK FORMASIDIR

ilk növbədə insan şüurunun, psixologiysının ölkəmizin inkişaf tempi ilə bərabər səviyyədə olmamağı kimi qeyd edərdim. Yəni, bu yerli özünüidarə orqanlarının fəaliyyəti sahəsində qəbul olunmuş qanunların vaxtında mənimsənilməməsində və həm də müəyyən bələdiyyələrdə işə məsuliyyətlə yanaşmamağında görürəm. Bələdiyyələr bilməlidirlər ki, yerli özünü idarəetmə orqanlarının maliyyə vəsaitlərinin artırılması üçün qa-

# Azər Badamov: “Bələdiyyələr bilməlidirlər ki...”



**Sonuncu bələdiyyə seçkilərindən ötən bir ilə qısa nəzər salmaq məqsədiylə Milli Məclsin Regional Məsələlər Komitəsinin üzvü Azər Badamovla görüşdük.**

Söhbətimizin maraqlı və diqqətiçəkən məqamlarını oxucuların müzakirəsinə təqdim edirik.

Qeyd edək ki, ölkəmizdə dörd dəfə keçirilən bələdiyyə seçkilərinin hər biri dekabr ayına təsadüf edib. İlk seçkilərdə 2736 bələdiyyə formalaşmışdısa sonuncu seçki ilində bu rəqəm 1607-ə bərabər oldu.

Bəs ümumilikdə Azərbaycan bələdiyyə sisteminin 16 illik fəaliyyətini necə qiymətləndirmək olar. İlk olaraq ünvanladığım suala maraqlı cavab gəldi:

- 1999-cu ildə keçirilən ilk bələdiyyə seçkilərindən sonra formalaşan yerli özünüidarəetmə orqanları Azərbaycanda demokratik cəmiyyətin qurulmasının göstəricisidir. Deməliyəm ki, bələdiyyələr formalaşdırılarkən dünyada mövcud bələdiyyə sistemləri tədqiq edilmiş, inkişaf etmiş ölkələrin təcrübəsi öyrənilmiş və yerli özünüidarə orqanların fəaliyyəti üçün qanunvericilik bazası hazırlanaq təsdiq edilmişdir.

Azərbaycan bələdiyyə sistemi ötən 16 il ərzində inkişaf etmiş, təkmilləşmiş və ölkəmizin həyatında vacib bir struktura çevrilmişdir. Əvvəlki illərdə bələdiyyə sisteminə seçkilərdə təcrübəsiz, savadı olmayan insanlar seçilirdisə, artıq indi seçici daha çox ziyalı, qanunları bilən və bələdiyyə sistemində hər hansı bir iş görə biləcək təcrübəli şəxslərə daha çox etimad göstərir.

Bir məqamda etiraf etməliyik ki, bələdiyyələr yaradılan ilk illərdə ancaq torpaq satışı ilə məşğul olurdusa, indi bələdiyyələr öz fəaliyyətlərini qanunauyğun şəkildə qurur və cəmiyyətin müəyyən problemlerinin həllində yaxından iştirak edir.

Demək olar ki, yola saldığımız 16 il ərzində Azərbaycan bələdiyyələri cəmiyyətin içində birbaşa seçiciylə təmasda olan və yerli problemlerin həlli istiqamətində müəyyən işlər görən və xalqın etibarını qazanan orqana çevrilmişdir.

- Belə olan halda son bir ildəki fəaliyyət sizi bir secici kimi qane edirmi?

- Təbii ki, başa düşülməlidir ki, bələdiyyə sistemi ölkəmizdə yeni formalaşmış strukturdur. Hər il yaşa dolduqca fəaliyyət dairəsi də genişlənir. Son bir ildə də bələdiyyələrin ölkəmizin sosial-iqtisadi, siyasi həyatında müəyyən rolu olmuşdur. Müəyyən layihələrin həyata keçirilməsində iştirak etmişdir. Amma, təəsüf ki, yenə də kifayət qədər tam şəkildə öz işini qanunauyğun şəkildə qura bilən orqana çevrilməmişdir.

Düşünürəm ki, gələcək illərdə sistemin inkişafında müəyyən müsbət dəyişikliklər baş verəcəkdir.

- Bələdiyyənin bu günkü durumunda olan problemi nə də görürsünüz - maliyyəsizlkdə, kadr çatışmazlığında, sədrlərin məsuliyyətsizliyində və ya digər səbəbdə?

- Özünüz də qeyd etdiniz ki, bələdiyyələrin bu günkü durumunda müəyyən problemlər mövcuddur. Bu, nunvericilikidə kifayət qədər imkanlar mövcuddur. Sadəcə bu imkanlardan səmərəli istifadə olunmalıdır.

- Ötən beş ildəki fəaliyyətinizdə qəbul edilən qanunların hansı Sizin fikrinizcə bələdiyyələrin fəaliyyətinə təkan verəcək?

- Ötən 5 illik parlamentdəki fəaliyyət dövrümüzdə bələdiyyərlə bağlı bir sıra qanunlar qəbul olunmuş, bir çox qanunlarda müəyyən dəyişikliklər edilmişdir. Qəbul olunmuş bütün qanunlar bələdiyyələrin daha səmərəli fəaliyyət göstərilərək cəmiyyətin etimadını doğrultmağı üçün imkanlar açır.

Xüsusilə bələdiyyələrin maliyyə imkanlarının genişləndirilməsinə xidmət edən yerli vergilərin hesablanmsı və yığılması ilə əlaqədar qeyd etmək istəyirəm. Qanun qəbul olunana qədər bələdiyyələr əmlak və torpaq vergisinin hesablanmasında müəyyən çətinliklərlə üzləşirdisə, artıq yeni dəyişiklilərdən sonra bu mexanizm təkmilləşdirilərək daha da sadələşdirilmiş və vergilərin hesablanmasındakı bütün çətinliklər aradan qaldırılmışdır. Həm də, bələdiyyələrin status haqqında, bələdiyyə qulluğu haqqında və bələdiyyələrin etik davtranışı haqqında qanunları xüsusilə qeyd etmək istəyərdim. Qəbul olunmuş bütün qanunlar bələdiyyələrin inkişafına xidmət edir.

*Vüqar Tofiqli*
*“Bələdiyyə Həyatı”*

# Ticarət mərkəzlərinin bələdiyyələrə borcu yaranıb



**Ticarət mərkəzlərinin nəzdində fəaliyyətdə olan, o cümlədən avtodayanacaq xidməti göstərən hüqüqi və fiziki şəxslər qanunla müəyyən edilmiş qaydada bələdiyyələrə vergi ödəməlidirlər.**

Belə ki, “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununun 9.1.5 maddəsnin birmənalı olaraq göstərilir ki, “bələdiyyə ərazilərində hüquqi və fiziki şəxslərə məxsus olan ixtisaslaşdırılmış avtomobil dayanacaqları və ya bələdiyyələrin qərarına əsasən müəyyən edilmiş yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və ya müvəqqəti dayanacaqları üçün ödəniş” həyata keçirilməlidir. Qanunda ödənişin həcmi də qeyd edilir: “Bu ödəniş hər bir nəqliyyat vasitəsi üçün sutkada 0,1 manatdan çox olmamaqla müəyyən edilir”

Belediyye.info bununla bağlı bələdiyyələrə müraciət edib. Nəsimi, Səbail, Nizami, Bakıxanov və Lökbatan bələdiyyələrinin təmsilçiləri bununla bağlı dəfələrlə sahibkarlara müraciət edildiliyini desələrdə, hələ ki konkret nəticənin olmamasından narahatlıqlarını bildiriblər.

Bununla bağlı “Bələdiyyələrin fəaliyyətinin təbliği” İctimai Birliyinin sədri Vüqar Tofiqli Belediyye.infoya açıqlamasında bildirib ki, ticarət mərkəzlərində fəaliyyət göstərən avtodayanacaqlar hər bir avtomobil sahibindən alınan vəsaitdən 10 qəpik miqdarında vəsaiti yerli büdcəyə ödəməlidir. Bu həmin sahibkarların bilavasitə borcudur ki, fəaliyyət göstərdiyi ərazidə fortmalaşan bələdiyyələrə aid vəsaiti vaxtında köçürsün.

Qeyd edək ki, hazırda həmin avtodayanacaqlarda olan ödənişin həcmi hər avtomobilə görə saatı 50 qəpikdən bir manatadək dəyişir.

“Bələdiyyələrin fəaliyyətinin təbliği” İctimai Birliyinin bu istiqamətdə apardığı araşdırmalardan belə qənaətə gəlmək olar ki, bu gün ticarət mərkəzlərinin bələdiyyələrə kifayət qədər vəsait ödəməlidirlər. Belə ki, ortalama rəqəmlə götürsək bu rəqəmin ay ərzində 50 min manatdan artıq etdiyini görmək olar.

***Belediyye.info***

# Vüqar Əliyev: “Uğurlarımızla yanaşı problemlərimiz də var”



**“Ölkənin surətli inkşafında, əhalinin sosial rifahının yüksəlməsində, demokratiyanın genişlənməsində yerli özünüidarəetmə orqanları kimi bələdiyyələrin də rolu ilbə-il artmaqdadır. Bu gün bələdiyyə təsisatları inkişaf edərək ölkənin demokratik idarəetmə sistemində öz yerini tutmaqdadır. Bələdiyyələr yaranmış münbit şəraitdən faydalanaraq onlara qanunla verilmiş səlahiyyətlərdən daha səmərəli istifadə etməyə, ölkəmizdə gedən quruculuq işlərində dövlətin köməkçisi kimi yaxından iştirak etməyə çalışırlar”- bu fikirləri Qaradağ rayonu Müşviqabad bələdiyyəsinin sədri Vüqar Əliyev Belediyye.infonun əməkdaşıyla söhbətində deyib.**

“Azərbaycanın bölgələrinin inkişafı və modernləşməsi üçün həyata keçirdiyi “2009-2013-cü illərdə bölgələrin sosial iqtisadi inkişafı” dövlət proqramı “2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial iqtisadi inkişafına dair dövlət proqramlarının icra olunması uğurla öz bəhrəsini verməkdədir.”

Daha sonra bələdiyənin fəaliyyətinə toxunan sədr bildirib ki, “bələdiyyələrin fəaliyyətinin şəffaflıq prinsipi əsasında qurulması əhalinin bizə inamını artıran əsas amillərdən biridir. Buna görə də biz öz fəaliyyətimiz haqqında əhaliyə mütəmadi məlumat veririk. Yığılan vəsaitlər bələdiyyənin saxlanmasına və digər qeyd edilən zəruri tədbirlərə xərclənmişdir. Müşfiqabad bələdiyyəsi ərazisində yerləşən yaşayış massivlərində yaşayan əhali tərəfindən atılan bərk məişət tullantılarından ərazinin təmizlənməsinə və daşınmasına köməklik göstərilmişdir.”

Görülən işlərə toxunan sədr bu layihələr sırasında Müşviqabad qəsəbəsində meydançanın tikilməsini və ətrafının abadlaşdırılmasını xüsusiylə qeyd edib. Bununla yanaşı tərəfimizdən xüsusi texnika cəlb edilməklə bərk məişət tullantıları yığılaraq ətraf təmizlənmişdir.

Vətəndaşların probleminin dinləməsini, onun həlli istiqamətində addımların atılmasını bələdiyyənin daim diqqət mərkəzində olduğunu bildirən sədr 2015-ci ildən başlayaraq mütəmadi olaraq vətəndaşların inzibati ərazidə yerləşən xidmət sahələrinin rəhbərlərinin iştirakıyla səyyar qəbulu təşkil edildiyini və qaldırılan məsələlər protokollaşdırılaraq öz səlahiyyəti daxilində həll edildiyini qeyd edib. Bununla yanaşı yaşayış massivlərində məhəllədaxili yollar təmir edilib, bir sıra küçələr abadlaşdırılıb.

Bizim üçün eləcədə hər bir respublika vətəndaşı üçün 2015-ci ildə baş verən ən vacib hadisələrdən biri də qəsəbədən keçən Sumqayıt-Sahil magistral yolunun yenidən inşa edilərək tam şəkildə istifadəyə verilməsidir. Nəticədə qəsəbəmizin iqtisadi dəyəri hesaba gəlməz dərəcədə artmış, əhali üçün gözəl sosial imkanlar açılmışdır.

Bələdiyyə sədri digər bir məqama da toxundu. Sədrin sözlərinə görə, cari ildə bələdiyyənin ərazisində özbaşına torpaq zəbtlərinin, qanunsuz tikililərin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlər görülmüş, bəzi hallarda tədbirlərin daha təsirli olması üçün məhkəmələrə müraciət edilmişdir.

2015-ci ildəki fəaliyyəti dövründə humanitar layihələrin icrası bələdiyyənin prioritet istiqamətlərində olduğunu deyən sədr bələdiyyə tərəfindən bu istiqamətdə aztəminatlı ailələrə maddi yardım göstərildiyini, 20 Yanvar, Çernobl, Ağsaqqal və Mühabibə veteranları şurasının üzvlərinə görüşlər keçirərək onların problemlərinin dinlənildiyini və sonda maddi yardımlar göstərildiyini bildirib.

“Bələdiyyənin uğurları ilə yanaşı həm də ərazimizdə problemlərin mövcudluğu da istisna deyil”- bu fikri də bələdiyyə sədri bidirib.

Ərazidə ən aktual problem, vergilərin ödənilməsi ilə bağlı əhali arasında maarifləndirilməsinin zəif təşkili və ərazidən yığılan vergilərin nəzərdə tutulandan az olması ilə bağlıdır. Bələdiyyə büdcəsinin, ancaq yerli vergi və ödənişlərdən formalaşdığını nəzərə alsaq, bunun bələdiyyə ücün ən aktual problem olduğunu görmüş olarıq.

Məhz bu məqsədlə bələdiyyə üzvləri və qulluqçuları daim əhali arasında maarifləndirmə işləri aparır və yerli vergilərin bələdiyyə büdcəsi üçün acibliyini izah edirlər.

Cari ildəki fəaliyyətə toxunan sədr bildirdi ki, əhalinin rahatlığının təmin olunması ilə bağlı atılacaq növbəti əsas addımlardan biri bələdiyyə ərazisində olan məhəllədaxili yolların təmir olunması ilə bağlıdır. Həmçinin, qəsəbədə sıradan çıxmış və təmirə ehtiyacı olan su və kanalizasiya xətlərinin cari təmiri də yaxın vaxtlarda görüləcək işlər siyahısına daxil edilib.

***Belediyye.info***

## ALLAH RƏHMƏT ELƏSİN

Milli Məclisin Regional Məsələlər Daimi Komitəsinin üzvləri
*Mehdi Səlimzadəyə*
**anası Şüşəbəyim xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin kollektivi
*Mehdi Səlimzadəyə*
**anası Şüşəbəyim xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Milli Şəhər, Qəsəbə, Kənd Bələdiyyə Assosiasiyasının üzvləri
*Mehdi Səlimzadəyə*
**anası Şüşəbəyim xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Bələdiyyə Həyatı” qəzetinin kollektivi *Mehdi Səlimzadəyə*
**anası Şüşəbəyim xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kürdəxanı bələdiyyəsinin kollektivi *Mehdi Səlimzadəyə*
**anası Şüşəbəyim xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin kollektivi Suraxanı rayonu Qaraçuxur bələdiyyəsinin *sədri İxtiyar Nəcəfova*
**xalası Şərqiyyə *Bağırovanın***
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin kollektivi Xəzər rayonu Şağan bələdiyyəsinin sədr müavini *Afiyyəddin Məmmədova*
***anası Nərgiz Hüseyn qızı Məmmmədovanın***
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Bələdiyyə Həyatı” qəzetinin kollektivi Suraxanı rayonu Qaraçuxur bələdiyyəsinin *sədri İxtiyar Nəcəfova*
**xalası Şərqiyyə *Bağırovanın***
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Bələdiyyə Həyatı” qəzetinin kollektivi Xəzər rayonu Şağan bələdiyyəsinin sədr müavini *Afiyyəddin Məmmədova*
***anası Nərgiz Hüseyn qızı Məmmmədovanın***
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mirbaba Hüseynov və Xəzər rayonu Mərdəkan bələdiyyəsinin kollektivi Şağan bələdiyyəsinin sədr müavini *Afiyyəddin Məmmədova*
***anası Nərgiz Hüseyn qızı Məmmmədovanın***
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Habil Həmidov və Xəzər rayonu Binə bələdiyyəsinin kollektivi Şağan bələdiyyəsinin sədr müavini *Afiyyəddin Məmmədova*
***anası Nərgiz Hüseyn qızı Məmmmədovanın***
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Astara bələdiyyəsi dəmiryol xəttinin çəkilşinə qatılıb

**Astara bələdiyyəsinin sədri Aygül Məmmədovanın Belediyye.infoya açıqlamasında bildirilir ki, “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində Astaranın üç bələdiyyəsinin ərazisində xüsusi mülkiyyətdə olan torpaqların boşaldılmasına başlanılacaq. Hazırda siyahı dəqiqləşdirilir. Astara bələdiyyəsinin ərazisində 17 ev, 1 ikimərtəbəli bina söküntü ərazisinə düşür.**

Bununla yanaşı 113 nəfərə aid pay torpağı, 15 kanal ərazisi, habelə Astara bələdiyyəsinə aid əkin sahəsi, meşə zolağı dəmir yolu xəttinin çəkiləcəyi əraziyə düşür. Hazırda Astaranın üç bələdiyyəsi icra nümayəndəlikləri ilə birgə dəqiqləşdirmələr aparırlar. Bələdiyyələr hazırda pay torpaqlarının sahiblərini tapmaqla bərabər torpaqla bağlı aktların alınmasını həyata keçirirlər. Sədrin sözlərinə görə, bununla bağlı inanırıq ki, alqı-satqı əməliyyatları nəticəsində bələdiyyə büdcəsinə kifayət qədər vəsait daxil ola bilər.

Xatırladaq ki, “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirəcək. Proqnozlar göstərir ki, tam gücü ilə fəaliyyət göstərəcəyi təqdirdə “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının İran körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaqdır.

***Belediyye.info***

# Binəqədi sakinlərinə hesabat verildi

**Binəqədi qəsəbə Mərkəzi Mədəniyyət evində Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Binəqədi qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin və Binəqədi qəsəbə bələdiyyəsinin 2015-ci ildəki fəaliyyətinə dair hesabat yığıncağı keçirilib.**

Yığıncağı gişiş sözüylə açan Binəqədi rayon İcra Hakimiyyəti başçısının müavini Vüsal İsmayılov qəsəbədə görülən və görüləcək işlərdən danışaraq sakinləri müzakirələrdə aktiv iştirak etməyə dəvət edib.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Binəqədi qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Elxan Əliyev və Binəqədi qəsəbə Bələdiyyəsinin sədri Aytac Əliyeva 2015-ci il ərzində qəsəbədə görülən işlər barəsində geniş məruzəylə çıxış ediblər.

Hesabat yığıncağında məruzəçilər çıxışlarında əhalini narahat edən məsələlərə də toxunaraq, qaldırılan məsələlərin həlli yolları barədə ciddi fikir mübadiləsi aparıblar.

Yığıncaqda hər iki qurumun rəhbəri sakinləri maraqlandıran sualları cavablandırıblar.

Hesabat yığıncağında Binəqədi qəsəbəsinin ziyalıları, ağsaqqalları və yüz nəfərdən artıq qəsəbə fəali iştirak edib.

***Belediyye.info***


## “Bələdiyyə həyatı” qəzetinə abunə olmağa tələsin




*Qəzetin illik abunə haqqı 80 (səksən) manatdır.*

**”Bələdiyyə həyatı” qəzeti redaksiyasının abunə rekvizitləri**

Adı: “ATRABANK” ASC
Kodu: 507525 VÖEN: 9900010231
Müxbir hesabı:
AZ94NABZ01350100000000025944
S.W.I.F.T. BİK ATRAAZ22

**“BƏLƏDİYYƏ HƏYATI” QƏZETİ MMC**
**HESAB N_**
**AZ11ATRA40090048000000000064**
**VÖEN: 1001116461**


Təsisçi: T.Səlimzadə

Redaktor: Vüqar TOFİQLİ

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Bəşir Səfəroğlu küçəsi 141. AZ1009*

Tel: (012) 594-47-35
Mob: (+994 050/055) 221-28-14

Qəzet Ədliyyə Nazirliyində qeydə alınmışdır. 17.02.2003

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Faktlara görə müəlliflər məsuliyyət daşıyır.

Adı: “ATRABANK” ASC
Kodu: 507525 VÖEN: 9900010231
Müxbir hesabı:
AZ94NABZ0135010000000002594
S.W.I.F.T. BİK ATRAAZ22
“Bələdiyyə həyatı” qəzeti MMC
Hesab N_
AZ11ATRA40090048000000000064
VÖEN: 1001116461

Dizayner: Zaur ƏLİYEV

“Azərbaycan” nəşriyyatında çap olunub

Sifariş: 143
Tiraj: 1500